Heydər Əliyev - 101

UOT 94(479.24)

NAZİM MƏMMƏDOV
Azərbaycan Milli Elmlər Akademiyası
A.A.Bakıxanov adına Tarix İnstitutunun
"Qarabağ müharibəsinin tarixi və Böyük Qayıdış hərəkatı"
şöbəsinin baş elmi işçisi, t.e.d., dosent.
Memmedov-n.@yahoo.com

AZƏRBAYCANIN DAĞLIQ QARABAĞ BÖLGƏSİNƏ ERMƏNİSTANIN ƏSASSIZ ƏRAZİ İDDİALARI VƏ HEYDƏR ƏLİYEV QƏTİYYƏTİ (XX əsrin 60-70-ci illəri)

DOI: https://doi.org/10.36719/2708-065X/105/28-38

Heydər Əliyev erməni millətçilərinin niyyətlərini yaxşı anlayır, Dağlıq Qarabağın iqtisadi və sosial-mədəni inkişafına böyük önəm verir, qayğı göstərirdi. Heydər Əliyevin ağıllı və uzaqgörən siyasəti nəticəsində partiya və sovet orqanlarının, ictimai təşkilatların fəaliyyətlərinin düzgün təşkili erməni separatçıları kütləvi çıxışlardan çəkindirirdi. Qarabağ məsələsi 20-ci əsrin 60-70-ci illərində yenidən gündəmə gətirilsə də, onun qarşısı Heydər Əliyev tərəfindən qətiyyətlə alındı.

Açar sözlər: Heydər Əliyev, Azərbaycan, Dağlıq Qarabağ, seperatizm, milli siyasət, Ermənistan.

Giriş. Ümummilli lider Heydər Əliyev XX əsr Azərbaycan tarixində böyük rol oynamış, geniş və hərtərəfli fəaliyyəti ilə Azərbaycanın ictimai-siyasi həyatında əsaslı dönüş yaratmışdır. Azərbaycan müstəqillik dövrünə qədəm qoyduğu bir vaxtda cəmiyyətimizin qarşısında duran mühüm vəzifələrdən biri ictimai-siyasi və mədəni inkişafda ümumbəşəri dəyərlərə istiqamətlənməklə yanaşı milli-mənəvi dəyərləri qorumaq və daha da inkişaf etdirmək olmuşdur. Bununla əlaqədar olaraq, Heydər Əliyev irsinin öyrənilməsi, onun elmi-nəzəri təhlilinə əsaslanaraq 1969-1982-ci illərdə Azərbaycanın Dağlıq Qarabağ bölgəsinin sosial-iqtisadi inkişafının araşdırılması böyük elmi və ictimai-siyasi əhəmiyyətə malikdir. Bu baxımdan, tədqiq etdiyimiz mövzu Azərbaycan tarixinin daha dərindən və tarixi həqiqətə uyğun araşdırılması üçün mühüm əhəmiyyət kəsb edir.

Müasir dövrdə xalqın sosial-mədəni-mənəvi potensialının güclənməsi, dövlətin sosial-mədəni siyasəti 1969-1982-ci illərdə əldə olunmuş zəngin təcrübənin nəticəsidir. Azərbaycan Respublikasının dövlət müstəqilliyinin bərpasının 20-ci ildönümü haqqında Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin Sərəncamında deyildiyi kimi, "Hələ ötən əsrin 70-ci illərindən başlayaraq Azərbaycanın böyük oğlu Heydər Əliyevin strategiyasına uyğun respublikamızda həyata keçirilən genişmiqyaslı proqramlar müasir iqtisadi potensialın formalaşmasına, sosial-mədəni həyatın canlandırılmasına və milli-mənəvi dəyərlərin dirçəldilməsinə yönəldilərək gələcək müstəqilliyimizin təmin olunması üçün zəmin hazırlamışdı" [1]. Bu baxımdan da, 70-ci illərdə Dağlıq Qarabağda baş verən siyasi prosesləri öyrənmək və araşdırmaq böyük elmi əhəmiyyət kəsb edir. Məqalənin əsas məqsədini XX əsrin 70-ci illərində Ermənistanın Azərbaycanın Qarabağ bölgəsinə qarşı növbəti, əsassız ərazi iddiaları, Ümummilli lider Heydər Əliyevin gərgin və məqsədyönlü siyasətinin nəticəsi olaraq Azərbaycanın ərazi bütövlüyünün qorunub saxlanılması kimi önəmli problemlərin təhlili təşkil edir.

1969-cu ildə respublikada hakimiyyətə gələn Heydər Əliyevin fəaliyyət proqramı ilə yaxından tanışlıq sübut edir ki, o, məsul posta hazır quruculuq konsepsiyası ilə gəlmişdi. Xarakter etibarı ilə qətiyyətli və novator ruhlu Heydər Əliyev hakimiyyətə gələndən az sonra yeni bir dünyagörüşü ortaya qoydu: məqsəd yeni bir Azərbaycan idi.

Azərbaycan Respublikasının Prezident İlham Əliyev 44 günlük müharibədə tarixi Zəfərdən sonra, Respublika tarixinin fundamental məsələlərinin müəyyən ediləsi və onların öyrənilməsi sahəsində mühüm müddəalar ilə çıxış etmişdir. Onların arasında müasir Azərbaycan tarixini dəyişən İkin-

ci Qarabağ müharibəsinə dair fikirlər xüsusi yer tutur. Prezident İlham Əliyev demişdir: "İkinci Qarabağ müharibəsi, bir daha demək istəyirəm, tarixi Zəfərimizdir. Azərbaycanın çoxəsrlik tarixində buna bənzər qələbə olmamışdır. Müharibə ilə bağlı artıq kifayət qədər məlumatlar var və təkrar etmək istəmirəm. Müharibənin gedişatı hər kəsə məlumdur. Sadəcə olaraq, indi bizim dərsliklərimizdə, elmi əsərlərdə, məqalələrdə, kitablarda müharibə ilə bağlı və müharibədən əvvəlki dövrlə bağlı çox müfəssəl və geniş məlumat verilməlidir ki, biz bu tarixi olduğu kimi qeyd edək, bu tarixi olduğu kimi yazaq və gələcək nəsillər də daim bunu bilsinlər və unutmasınlar, o cümlədən erməni vəhşiliyini unutmasınlar" [9]. 44 günlük Qarabağ Zəfərinin nəticələrindən biri də "Dağlıq Qarabağın statusu" məsələsinin tamamilə müzakirədən çıxarılması olmuşdur.

XIX yüzilliyin əvvəllərində 9 min kv.km. Azərbaycan ərazisində məqsədli şəkildə "erməni vilayəti" yaradıldıqdan sonra, dünyanın müxtəlif bölgələrində yaşayan ermənilər bu əraziyə köçürüldü, qədim Azərbaycan torpaqları zaman-zaman, hissə-hissə həmin quruma birləşərək, artıq keçən əsrin əvvəllərində 29 min kvadrat kilometrlik bir ərazimizdə "Ermənistan dövləti" yaradıldı [13, s.218]. Bütün XX yüzillik boyu Ermənistanın və onun "uzaqgörən" dövlət xadimlərinin, erməni siyasətçilərinin Azərbaycana qarşı əsassız ərazi iddiaları mövcud olmuşdur. 1905-1906, 1918-1920 və 1920-1940-cı illərdə Dağlıq Qarabağı Azərbaycandan qopara bilməyən ermənilər bu məsələyə 1950-1960-cı illərdə yenidən qayıtdılar. 1948-1953-cü illərdə Ermənistan SSR-də yaşayan azərbaycanlıların 150 min nəfəri doğma yurdlarından zorla çıxarıldı, insan hüquqları kobudcasına pozuldu [2, v.7]. Minlərlə azərbaycanlı, xüsusilə uşaqlar və qocalar kəskin iqlim dəyişikliyinə dözməyərək həlak oldular. Min illər boyu azərbaycanlıların yaşadıqları torpaqlar boşaldıqdan sonra buraya xaricdən ermənilər köçürüldü. Maraqlı cəhət ondan ibarətdir ki, Azərbaycana köçürülmüş həmvətənlərimizin DQMV-də yerləşdirilməsinə hər vasitə ilə manea oldular.

1960-cı illərin ikinci yarısında yeni hücuma təşəbbüs göstərildi. Bu barədə çox sonralar, bir qrup Azərbaycan yazıçısı ilə söhbəti zamanı Heydər Əliyev xatırlayırdı: "Yadımdadır, 1966 ya 67-ci ildə Moskvadan qərar gəldi. Axundov məni yanına çağırdı. Bu, Sov.İKP-nin qərar idi, orada Azərbaycan KP MK katibi Axundova və Ermənistan KP MK katibi Koçinyana tapşırıldı ki, bu məsələni müzakirə edib məruzə etsinlər (Azərbaycanın muxtar vilayətlərinin Ermənistana verilməsi barədə). Bu nə demək idi? Bu o demək idi ki, Azərbaycanın səlahiyyətinə aid olan məsələnin həllini Ermənistana təklif edirdilər...

Oturub fikirləşdik. Mən Vəli Axundova dedim, bilirsiniz, siz gərək Moskvaya gedib Brejnevlə görüşəsiniz. O getdi və Brejnevi qərarı ləğv etməyə inandıra bildi" [11, s.171].

1960-cı illərin ortalarında Azərbaycan xüsusi xidmət orqanları gizli fəaliyyət göstərən bir neçə millətçi qrup aşkar etmişdi. Gizli "Erməni gəncləri ittifaqı" bütün "erməni ərazilərinin", o cümlədən Dağlıq Qarabağ və Naxçıvanın Ermənistana birləşdirilməsinə çağıran vərəqələr yayırdı. Xarici kəşfiyyat rəisi general İ.Hüseynov xatırlayır ki, 1965-ci ilin iyununda "DQMV-də Azərbaycan Yazıçılar İttifaqı filialının məsul katibi olan B.Ulubabyan adlı bir nəfər Sov.İKP MK-ya "DQMV-nin Ermənistan SSR-ə birləşdirilməsi" tələbi ilə ərizə göndərmişdi. Ərizəni vilayətin erməni millətindən olan bir sıra məsul partiya və sovet işçiləri və başqaları imzalamışdılar. Bu hadisə ilə də bağlı respublikada DTK orqanları bütün proseslər haqqında respublika rəhbərliyini məlumatlandırmışdı. Təxribatçıların fəaliyyətinin qarşısını almaq üçün təcili ehtiyat tədbirləri görülmüşdü" [21, s.57].

Qeyd etmək lazımdır ki, XX əsrin 60-cı illərində DQMV-də bu cür separatçı təzahürlər və sosial narazılıq partlayışları tez-tez baş verirdi. SSRİ DTK-sının keçmiş sədri, 60-cı illərdə Azərbaycan KP MK ikinci katibi işləmiş Vladimir Semiçastnı rusiyalı jurnalist A.Karaulovla olan söhbətində bu haqda xatırlayır: "... İndi Dağlıq Qarabağda baş verənlər (1989-cu il nəzərdə tutulur – N.M.) o vaxt da var idi, Qarabağ ətrafında söz-söhbətlər, dedi-qodular, bir sözlə, qeyri-sağlam çəkişmələr gedirdi" [24, s.26].

Azərbaycan DTK-sının 1967-ci il hesabatında, DQMV-də olan vəziyyətin müfəssəl təhlilini verən Heydər Əliyev qeyd edirdi ki, "bir çox hallarda vilayətdə siyasi cəhətdən ziyanlı və cəmiyyətə zidd olan hərəkətlər Ermənistan SSR-dən olan millətçiliyə köklənmiş ayrı-ayrı elementlərin təsiri və bilavasitə iştirakı ilə həyata keçirilirdi. Ermənistandan bəzi şəxslər Xankəndinə gəlir və DQMV-nin Ermənistana birləşdirilməsinin gözlənildiyi barədə şayiələr yayırdılar; "Qarabağ ermənilərinə müraciət" və təxribat xarakterli başqa çap materialları gətirirdilər və yayırdılar...".

SSRİ DTK 5-ci Baş idarəsinin keçmiş rəisi F.Bobkov "DTK və hakimiyyət" kitabında Qarabağ münaqişəsinin köklərini təhlil edərkən haqlı olaraq əsas səbəblərindən birini daşnaksutyun ideoloqlarının qatı millətçi təbliğatında görür. Aşağıda SSRİ DTK-sında 15 il məhz ideologiya məsələləri ilə məşğul olmuş və bu səbəbdən də fikirlərini diqqətəlayiq hesab olunan bir şəxsin xatirələrindən fraqment gətirilir: "Erməni millətinin müstəsnalığı nəzəriyyəsi respublika əhalisinə uşaq yaşlarından təlqin edilirdi. Müharibə illərində hitlerçilərlə mübarizə aparan "Gənc qvardiya" təşkilatının üzvləri arasında yalnız Jora Arutyunyantsın adı çəkilirdi. Başqa adlar, hətta təşkilatın rəhbərləri belə verilmirdi. Söhbət, deyək ki, görkəmli sovet musiqiçilərindən, rəssamlarından, mədəniyyət və elm xadimlərindən gedirdisə, adətən yalnız ermənilərin adları çəkilirdi.

Ermənistanda olarkən mən bu barədə Dəmirçiyanla danışmışdım. Bizim uzun və çətin söhbətimiz bir nəticə verməsə, Ermənistan Kommunist Partiyasının rəhbəri inadla təkrar edirdi: "Bizdə qorxulu heç nə baş vermir!" Getməmişdən əvvəl mən bir də onunla görüşdüm və daşnakların fəal surətdə respublika ərazisinə keçdiyi barədə yeni faktlar gətirdim. Dəmirçiyan bir qədər başqa cür reaksiya verdi. Ermənistan KP MK-nın növbəti plenumunda kommunistləri daşnak təsiri ilə mübarizəyə çağırdı, lakin çətinliklə işıq üzü görən bir neçə məqaləni saymasaq, iş bu formal aksiyadan o tərəfə getmədi. Dağlıq Qarabağda yaşayanlar üçün belə fəaliyyətsizlik fəlakətlə nəticələndi" [19, s.313].

Azərbaycan xüsusi xidmət orqanları fəaliyyətsizlik göstərmirdilər: Respublika MTN-in arxivində Heydər Əliyev və digər DTK rəhbərlərinin imzası ilə müxtəlif illərdə Azərbaycan KP MK-ya, ittifaq orqanlarına göndərilmiş, milli ədavəti qızışdıran, düşmənçilik toxumu yayan şəxslər və qruplar haqqında çoxsaylı siqnallardan ibarət məktub və arayışlar az deyildir.

Məsələn, Heydər Əliyevin Azərbaycan KP MK-nın birinci katibi V.Y.Axundova göndərdiyi 1967-ci il 6 iyun tarixli, 10480 nömrəli təqdimatında müxtəlif millətçi təşkilatların yaradıcıları və iştirakçıları, onlardan vərəqələrin müsadirə edilməsi, "Arsax vətənpərvərləri ittifaqı" qrupunun aşkar edilməsi və fəaliyyətinin qarşısının alınması, qrup üzvləri ilə profilaktika aparılması barədə müfəssəl məlumat verilmişdir.

Birinci katib göndərilə digər sənəddə (10579, 26 iyun 1967 il) Heydər Əliyev məlumat verir ki, Xankəndində "Dağlıq Qarabağın Ermənistana birləşdirilməsi tələbləri və millətçi xarakterli uydurmalardan ibarət" fotokağızda çap edilmiş 300 vərəqə yayılmışdır. Daha sonra deyilir ki, vərəqələri hazırlayanları və yayanları aşkar etmək üçün Xankəndinə operativ qrup göndərilmişdir.

Filip Bobkovun haqlı iradına görə, həm Sov.İKP MK, həm də yerlərdə hesab edirdilər ki, millətçilik təzahürləri, təxribat və terrorla mübarizə DTK-nın sahəsidir, "onlar ona görə çekistdirlər ki, belə aksiyaları qabaqlasınlar, imkan verməsinlər, yox, əgər bu hal baş veribsə, qoy özləri də məsələni həll etsinlər. Heç kim məsələnin mahiyyətinə varıb anlamaq istəmirdi – fəlakətin qarşısını yalnız daşnak təbliğatına qarşı yönəlmiş izahat işi ala bilərdi" [19, s.312].

Heydər Əliyev respublika DTK-sının sədri vəzifəsinə gələn gündən bu ciddi problemlə üzləşməli oldu. 1967-ci il iyulun 3-də Xankəndində qan qisası və məhkəmədən narazılığa görə kütləvi iğtişaşlar baş verdi. Üç nəfər azərbaycanlını DQMV-nin Xocavənd rayonunun kolxoz sədrlərindən birinin 8 yaşlı oğlu Nelson Movsesyanı qətlə yetirməkdə ittiham edirdilər. Onlardan birini ölüm cəzasına, o birini isə 15 il azadlıqdan məhrum olunmağa məhkum etmişdilər. Üçüncü müttəhim bəraət almışdı. Məhkəmə kollegiyasının qərarının "yumşaq" olmasından narazı qalana zərərçəkənlərin qohumları, kütləni ağır nəticələrə gətirib çıxarmış iğtişaşa təhrik edə bildilər. Azğınlaşmış kütlə iki məhbusa divan tutdu, başlarını əzdi, çoxlu sayda bıçaq yarası endirdi. Sonra parça-parça olmuş cəsədləri küçəyə sürüdülər və meyitləri təhqir etməyə başladılar. Bəraət almış Zöhrab Məmmədovu isə diri-diri yandırdılar.

Azərbaycan MTN Arxiv idarəsində saxlanılan istintaq materiallarında qeyd edilmişdi ki, ermənilər DQMV paytaxtının azərbaycanlı əhalisini vahiməyə salmaq üçün bu meyidləri küçəbəküçə sürmüşdülər. On nəfərdən çox milis işçisi və mühafizə əsgəri ciddi bədən xəsarəti almışdı. Respublika DTK-sı prokurorluqla bir yerdə cinayət işi qaldırdı. Heydər Əliyev polkovnik Firudin Bağırovun rəhbərliyi ilə təcrübəli briqada yaratdı və bu işi öz nəzarətinə götürdü. Bundan əlavə, Heydər Əliyev özü Xankəndinə getdi, istintaqın nəticəsində 20 nəfər ermənidən ibarət bir qrup cinayət məsuliyyətinə cəlb olundu. Müttəhimlərin qohumlarının Azərbaycan DTK-sına məhkəmənin qərarına təsir göstərmək niyyəti ilə yeni etiraz aksiyalarına hazırlaşdığı haqqında məlumat daxil oldu. Komitənin sədri

Heydər Əliyev DQMV-yə əməliyyatçılar briqadası göndərdi. Arif Zeynalov xatırlayır ki, "Getməzdən əvvəl Heydər Əliyev bizi yanına çağırıb dedi: "Vicdanla işləyin, bütün provokatorları üzə çıxarın. Bir də: Xankəndində gecələməyin. İşi qurtardınızmı, o saat – Ağdama. Onlardan hər şey gözləmək olar. Mən Ağdam raykomunun birinci katibinə göstəriş vermişəm, yaşayış və yeməyinizlə problem olmayacaq. Gündüzlər isə özünüz bir təhər dolanarsınız... Orada bir neçə həftə işlədik. İş barədə hər gün Heydər Əliyevə məruzə edirdik" [26, s.22].

Bundan başqa, qərara alınmışdı ki, Dağlıq Qarabağ Muxtar Vilayətinin DTK rəhbərliyi gücləndirilsin. DTK vilayət şöbəsinin sədri vəzifəsinə erməni millətindən olan adamın təyin olunmasına etiraz edən Heydər Əliyev və Moskvanı inandıra bildi ki, bu vəzifəyə rus millətinin nümayəndəsini göndərsin. Namizədi Heydər Əliyev özü seçmişdi: uzun müddət onun rəhbərliyi altında işləmiş, yoxlanılmış yerli kadr Bıstrov idi.

"Dəmir pərdə" zəifləyəndən, SSRİ-dən Qərbə və əks istiqamətdə turist axını artandan sonra Ermənistan və DQMV-nə turist adı altında okeanın o tayındakı havadarlarından konkret tapşırıqlar alan daşnak agentləri ayaq açdı. DTK arxivlərində SSRİ NS yanında DTK 2-ci Baş İdarəsi 2-ci şöbəsinin rəisi Heydər Əliyevə göndərdiyi məxfi məktub saxlanılır (2II-383, 7 fevral 1962-ci il). Məktubda deyilirdi ki, "1961-ci il noyabr ayının sonunda Livanda, xüsusi olaraq buraya gəlmiş Amerika kəşfiyyatının nümayəndəsi "Daşnaksutyun" partiyasının "Xarici büro" rəhbərləri ilə gizli müşavirə keçirilmişdir... [11, s.171]. "Xarici büro" tərəfindən bir sıra qərarlar qəbul edilmişdir: Təxribat işləri aparmaq üçün agentura hazırlanması və qeyri-leqal yolla repatriasiya kanalları vasitəsilə sərhədyanı ölkələrdən Ermənistan SSR-ə göndərilməsi; SSRİ-yə yollanan turist qrupları və qohumlarının yanına gedən ayrı-ayrı ermənilərdən casusluq məqsədi ilə istifadə edilməsi; bütün vasitələrdən istifadə etməklə, o cümlədən repatriasiyaya fəal kömək göstərən adamlara qarşı terror aktları törətməyə qədər, ermənilərin Sovet İttifaqına gözlənilən repatriasiyasına mane olmaq" [11, s.171].

Sənədin üstünə Heydər Əliyevin öz xətti ilə xarici daşnak təşkilatlarının əlaqələrini öyrənmək və aşkar etmək üçün konkret tədbirlərin hazırlanması, həmçinin casusların SSRİ sərhədinin Azərbaycana aid hissəsindən göndəriləcəyi halda onların tutulmasına dair göstərişlər olan dərkənar qoyulmuşdur.

Uzun illər sonra, müstəqil Azərbaycanın prezidenti olarkən Heydər Əliyev görkəmli Azərbaycan yazıçıları ilə söhbət zamanı Dağlıq Qarabağ münaqişəsinin yaranma səbəblərini təhlil edərkən, erməni millətçilərinin Azərbaycan ərazisinə iddialarının qarşısını kəsmək üçün necə böyük çətinliklərlə üzləşməli olduğunu, yüksək hakimiyyət dairələrində bəzən öz mövqeyini müdafiə etməyin heç də asan başa gəlmədiyini yada salırdı.

Azərbaycanın müasir tarixində 1969-cu ildə dönüş mərhələsinin təməli qoyuldu. Sosial-iqtisadi və mədəni məsələlərlə yanaşı respublika partiya təşkilatının birinci katibi postunda, xüsusilə də fəaliyyətinin ilk dövrlərində Heydər Əliyevin daimi qayğılarından biri özünün də şahidi olduğu erməni separatizminə müqavimət göstərmək, onun qarşısını almaq idi. XX əsrin 60-cı illərinin ortalarında Dağlıq Qarabağın zorla qopardılmasına nail olmaq cəhdləri növbəti dəfə uğursuzluqla nəticələnəndən sonra ermənilər taktikanı dəyişərək, 1920-ci illərin sonlarına aid olan hansısa "köhnə" xəritələri üzə çıxardılar, Azərbaycanın bir sıra sərhədyanı torpaqlarını "qədim erməni torpaqları" elan edərək, onların Ermənistana qaytarılmasını tələb etdilər. Sonralar Heydər Əliyev yada salırdı ki, "onlar köhnə xəritələri – 1928-ci ilin, yaxud da 1929-cu ilin xəritələrini ortaya çıxarmışdılar. Təəssüf ki, bu danışıqlar nəticəsində 1969-cu ilin may ayında Azərbaycanın Ali Soveti elə bir qərar qəbul etmişdi ki, həmin sərhədyanı torpaqlar guya Ermənistana mənsubdur və ona verilməlidir. Çox çalışdılar ki, bu qərar həyata keçirilsin, lakin mən buna imkan vermədim" [8].

Bəhs olunan dövrdə Ermənistan rəhbərliyi ilə görüşünü xatırlayan Heydər Əliyev qeyd edir ki, "1969-cu ilin sentyabrında Ermənistan KP-nin birinci katibi Anton Koçinyana təklif etdim ki, Ermənistandakı millətçi adamları öz ərazi iddialarından çəkindirmək üçün əməli, konkret işlər görsün. Zənnimcə, o görüşümüz səmərəli oldu. Çünki sonrakı dövrlərdə respublikalarımız arasında bizi narahat edən hadisələr baş vermədi" [17, s.71].

Görkəmli Azərbaycan şairi, yazıçı-publisist Hidayət "İrəvana 7 məktub" kitabında yazır: "Ermənistan KP MK-nın keçmiş birinci katibi A.Koçinyan 1988-ci ildə bir müsahibəsində deyirdi ki, onun rəhbərliyi dövründə Qarabağ "məsələsi" neçə dəfə qaldırılmış, lakin Heydər Əliyevin nüfuzu

və mərkəzdə sözünün iti kəsəri bu məsələnin həllinə imkan verməmişdir. Hətta M.A.Suslov Koçinyanı yanına çağırıb: «Хватит армянского национализма» – demişdi və bu, L.İ.Brejnevin dövründə erməni millətçiliyinə və Qarabağ "probleminə" axır nöqtə idi. Bəlkə buna görə də, L.İ.Brejnevin vəfatı İrəvanda bayram kimi qarşılandı" [5, s.23].

1971-ci il iyunun 18-də "Qarabağ" mehmanxanasının qarşısında qumbara partladılmış, Azərbaycan milliyyətindən olan beş nəfər ağır yaralanmış, biri ölmüşdür. Bağlı qalmış bu iş Heydər Əliyevin göstərişi ilə Əkrəm Səlimzadəyə həvalə edildi. İstintaqdan məlum olur ki, bu 1967-ci ildə Xankəndində bir oğlanın ölümü ilə bağlı işin davamıdır: Danielyan ölən qardaşının qisasını alırdı [20, s.41].

Sonra erməni millətçiləri 1973-cü ildə Sovet İttifaqının paytaxtında daha dəhşətli, hay-küylü Moskvada üç terror aktı - partlayış törətdilər, 29 nəfər həlak oldu. [19, s.311]. Gələcək təhlükəni duyan Heydər Əliyev DQMV rəhbərliyini etibarlı kadrlarla möhkəmləndirmək qərarına gəlir. 1973-cü ilin payızında onun təşəbbüsü ilə Qurgen Melkumyan birinci katib vəzifəsindən və Dağlıq Qarabağ Vilayət Komitəsi bürosunun üzvlüyündən azad olundu, bu vəzifəyə Boris Gevorkov seçildi. [22, s.15].

Qeyd edək ki, Gevorkov öz vəzifəsində 1988-ci il fevralın 23-nədək, Dağlıq Qarabağ vilayət partiya komitəsinin plenumunda "işdə yol verilən nöqsanlara görə" birinci katib vəzifəsindən azad olunana qədər işlədi. Onun yerinə qatı separatçı və gizli milyonçu Henrix Poqosyan gəldi [25, s.17].

Gevorkov 1975-ci ildə Dağlıq Qarabağda siyasi sabitliyi pozmağa çalışan millətçi ünsürləri tənqid edərək konkret faktları və soyadları, o cümlədən Zori Balayanın adını sadaladı, daşnak Andranikin milli qəhrəman kimi təqdim olunmasını tənqid etdi. Heydər Əliyev bu çıxışın nəticələrini belə xatırlayır: "Millətçi ünsürlər yenidən baş qaldırdı. ... 2 ay sonra Moskvada Dəmirçiyanla görüşüb 4 saat söhbət etdik. Ona bildirdim ki, DQMV-nin problemlərini vilayətin və Azərbaycanın öz rəhbərliyi həll etməlidir. ... Bu dəfə yenə ara sakitləşdi" [18, s.71].

Yeri gəlmişkən onu da qeyd edək ki, milliyyətcə erməni olan ziyalılardan bəziləri erməni ekstremistlərinin həqiqi simasını etiraf edirlər. Yazıçı Mariyetta Şaginiyan 1975-ci ildə, Bakıda keçirilən sovet ədəbiyyatı günlərinə gəlmişdi. Heydər Əliyev onu öz evində qəbul edərkən Şaginyan bəyan etdi ki, ermənilər Azərbaycanda çox gözəl yaşayırlar. Bakıya gələrkən Yerevanda Ermənistanın tanınmış mədəniyyət xadimlərindən ibarət bir qrup DQMV-nin Ermənistana verilməsi xahiş olunan məktubu ona göstərib, ərizənin altında imza qoymağı təklif ediblər. Şaginyan onlara rədd cavabı verib Beləliklə, Heydər Əliyev bir daha əmin olub ki, erməni separatçıları öz niyyətlərindən əl çəkməyiblər.

Ermənilər öz çirkin niyyətlərini reallaşdırmaq üçün 1976-cı ilin fevralında Ermənistan Pedaqoji İnstitutunun Gorus filialında və Yerevan Politexnik İnstitutunda DQMV və Naxçıvan MSSR-in Ermənistana birləşdirilməsi barədə məsələni həll etməklə bağlı Sov.İKP XXV qurultayına müraciət dərc olunmuş vərəqələr yaymağa başladılar. Elə həmin dövrdə "Nyu-York tayms" qəzetində dərc olunmuş Ermənistan KP MK-nın keçmiş üzvü Xanzadyan öz məqaləsində sovet hökumətindən "əvvəllər Ermənistana məxsus olan DQMV-ni geri qaytarmağı" tələb edirdi. Eyni vaxtda Kommunist E.Ohanesyanın Sov.İKP MK Siyasi Bürosuna göndərdiyi məktubda Azərbaycana məxsus olan Şamxor, Daşkəsən, Xanlar, Şaumyan rayonlarını, DQMV-in Ermənistana "qaytarmağı" tələb edirdi. Ümumiyyətlə, o dövrdəki erməni mətbuatında və əsərlərində "Böyük Ermənistan"ın sərhədləri ilə bağlı məsələnin şişirdilməsi hallarının yer alması xarakterik idi, qonşulara, əsasən də Türkiyə və Azərbaycan xalqlarına qarşı ərazi iddiaları sezilirdi. Qarabağ, Naxçıvan və digər rayonların "tarixi Ermənistanın yerli vilayətləri" olması fikri təlqin olunur. Bu meylləri Moskvada nəşr olunmuş "Erməni folkloru" (tərtibçi və tərcüməçi Q.Karapetyan) kitabında da müşahidə etmək olar. Müəllif həyasızcasına iddia edirdi ki, "Şuşa şəhəri tarixən Ermənistanın tərkibinə daxil olan Artsağın qala-şəhəridir" [22, s.58].

Azərbaycanın görkəmli alimlərindən biri olan hörmətli Akademik İqrar Əliyev xatırlayırdı ki, 1978-ci ilin əvvəlində Heydər Əliyev onu yanına çağıraraq deyib: "Ermənilər ölkə rəhbərliyi qarşısında Dağlıq Qarabağın Ermənistana verilməsi barədə məsələ qaldırıblar. Bu məsələ barədə əsaslı arayış hazırlamaq lazımdır". Akademik partiya liderinə xatırladıb ki, Böyük Vətən müharibəsindən dərhal sonra belə bir arayış Mircəfər Bağırov üçün hazırlanıb və onun tərtib olunmasında o özü də

iştirak edib. "Ertəsi gün Heydər Əliyev məni yenidən qəbul etdi. O, 30 il bundan əvvəl yazdığımız arayışı mənə uzatdı. Bir ay ərzində mən Dağlıq Qarabağın tarixi barədə geniş bir arayış hazırlayıb MK-ya təqdim etdim. Ertəsi gün arayışın əsas müddəaları Mərkəzi Komitə Bürosunun yığıncağında müzakirə olundu və bəyənildi. Sonralar mən öyrənib bildim ki, Heydər Əliyev ermənilərin Azərbaycan xalqına qarşı növbəti təxribatının qarşısını vaxtında ala bilib..." [4, s.13].

Yeri gəlmişkən, 1987-ci ilin sonunda akademik Aqanbekyanın Parisin "Yumanite" qəzetindəki çıxışından sonra İqrar Əliyev öz arayışını xatırladı və onu yenidən nəzərdən keçirib respublikanın o zamankı rəhbəri Kamran Bağırova göndərsə də, rəhbərlikdən heç bir operativ reaksiya görmədi, tezliklə hamıya məlum olan hadisələr qızışdı.

1999-cu il noyabrın 10-da bir qrup Azərbaycan yazıçısını Prezident Sarayında qəbul edən Heydər Əliyev iyirmi il öncəki hadisələri belə xatırlayırdı: "1977-ci ildə SSRİ-nin yeni Konstitusiyası qəbul olunurdu. Konstitusiya komissiyası təyin olunmuşdu, sədri Brejnev idi, biz də onun üzvü idik, mən də Azərbaycanın nümayəndəsi idim.

Vaxtaşırı komissiyanın müzakirələri keçirilirdi. Bunları da (müzakirələri – N.M.) o vaxt mərkəzi komitənin katibi vardı – akademik Ponomoryov – o aparırdı. Brejnev o qədər fəal iştirak eləmirdi. Bir dəfə Moskvaya, komissiyanın iclasına gəldim. Gördüm, xeyli ərizə gəlib ki, "Dağlıq Qarabağı Azərbaycanın tərkibindən çıxarıb Ermənistana vermək lazımdır". Gördüm ki, Ponomaryov deyir bunu komissiyanın müzakirəsinə qoymaq lazımdır – ermənilər ona da təsir göstərirdilər. Elə komissiyanın müzakirəsinə verilməsi faktı, başa düşürsünüzmü, nə deməkdir?

Hələ komissiyanın iclasında bir gün qabaq mən buna nə qədər etiraz elədim, gördüm yox, yenə də getdim Brejnevin yanına. Ona dedim ki, bu nədir, belə şey ola bilməz! Əgər Dağlıq Qarabağı Ermənistana verirsinizsə biz SSRİ-ni tərk edirik. Brejnev vəziyyəti belə görüb telefonla Ponomaryova zəng elədi ki, məsələni gündəlikdən çıxar!" [8, s.368].

Heydər Əliyevi Siyasi Büroya üzv seçəndə və o, ittifaq hökumətində rəhbərlərdən biri olanda Ermənistanın necə matəmə büründüyünü təsəvvür etmək çətin deyil. Aradan uzun müddət keçəndən sonra Daşnaksutyun partiyasının liderlərindən biri olan Gevork Kirakosyan həyasızcasına açıq-açığına bəyan etmişdir: "Heydər Əliyevi aradan götürməsək, Qarabağ bizim üçün vətən yox, zindan olacaq. Heydər Əliyev Ermənistanla yanaşı, bütün dünyadakı erməni lobbisini sarsıtmışdı... Bu barədə fikirləşmək lazımdır..." [5, s.51].

Dağlıq Qarabağ ətrafında hadisələr başlananda, mərkəzi kütləvi informasiya mənbələrində açıqdan-açığa Qorbaçov ideoloqlarının təhriklə belə bir fikir yayıldı ki, münaqişənin əsas səbəbi DQMV-nin sosial-iqtisadi sahədə geri qalması və respublika rəhbərliyi tərəfindən erməni əhalisinin hüquqlarının pozulması olub. Bütün bu məsələlərə aydınlıq gətirən Heydər Əliyev A.Karaulova verdiyi müsahibədə 1970-80-ci illərdə DQMV-nin sosial-iqtisadi cəhətdən nə cür yüksək inkişaf göstəricilərinə nail olduğundan ətraflı söhbət açıb, onun rəhbərliyi dövründə Dağlıq Qarabağda qurulub-yaradılanları sadalamışdı [14, s.116].

Bütün bunlara baxmayaraq, Heydər Əliyev Dağlıq Qarabağın inkişafı üçün nə qədər çox iş görürdüsə, Azərbaycan torpağının bu bərəkətli guşəsini qoparmaq planından əl çəkməyən Ermənistanın müəyyən dairələrdə ona qarşı münasibət daha neqativ hal alırdı.

Heydər Əliyev "erməni məsələsi"nə münasibətini çıxışlarından birində bu cür şərh etmişdi: "1969-cu il iyulun 14-dən 1982-ci il dekabrın 3-nə kimi Azərbaycan KP MK-nın birinci katibi olmuşam. Bu müddətdə Azərbaycan ərazisinin bir qarışı da Ermənistana verilməyib. Bu, faktdır. Baxmayaraq ki, Ermənistan tərəfindən ayrı-ayrı hallarda torpaqların alınmasına cəhdlər olurdu... Açıq heç nə demirdilər, bəzi rəhbər işçilər vasitəsilə mənə çatdırırdılar ki, biz gərək Ermənistanla Azərbaycanın xəritəsini dəqiqləşdirək, guya 1920-ci illərdə burada müəyyən səhvlər buraxılıb. Mən isə hamıya deyirdim ki, bizim sərhədimiz məlumdur və heç nəyi dəyişdirməyə ehtiyac yoxdur. Yadımdadır ki, Kəlbəcər rayonu ilə sərhəddə qızıl mədəni var idi. Orada qızıl axtarmaq bəhanəsi ilə ermənilər bizim torpağa keçmişdilər. Bunu bilən kimi Respublika Nazirlər Sovetinə, Kəlbəcər rayon rəhbərliyinə göstəriş verdim ki, yubanmadan onları çıxartsınlar və biz məsələni həll etdik" [17].

Dağlıq Qarabağ münaqişəsi başlananda da, bir qədər sonra da Heydər Əliyev əmin idi ki, bu məsələ, əlbəttə ki, DQMV-nin özündə düşünülməyib: "Mən DQMV əhalisi ilə dəfələrlə görüşmüşəm, vilayətin bütün rayonlarında olmuşam, ermənilərlə də çox söhbət etmişəm. Bir nəfər də demə-

yib ki, Qarabağ verilsin Ermənistana. Oradakı çıxışımda demişdim ki: "DQMV Azərbaycanın ayrılmaz hissəsidir və ayrılmaz hissəsi olaraq qalacaq..." [17].

Vaxtilə Azərbaycan Ali Məhkəməsinin sədri işləmiş İ.İsmayılov öz xatirələrində yazır: "1982-ci ilin yayında mən Heydər Əliyevin qəbuluna gəlib dedim ki, erməni millətçiləri lap hədlərini aşıblar, azğınlaşıblar, tədbir görüb, onları yerində oturtmaq lazımdır. O isə mənə dedi: "Sən bilirsən ki, Moskvada nələr baş verir, onların arxasında necə böyük qüvvələr durur. Bacarsaydım mən hər şeyi edərdim. İmkan vermirlər". O, Siyasi Büro üzvlüyünə namizəd, Brejnevin yaxın adamı idi, buna baxmayaraq erməni ekstremizminə qarşı çətinliklə sinə gərirdi.... Ümumiyyətlə, 70-ci illərin sonu - 80-ci illərin əvvəllərində təsəvvürə gəlməz işlər baş verdi. Cinayətkarlar arasında erməni olan kimi problem yaranırdı. Kimisə mühakimə edən kimi, o dəqiqə baş prokurorun köməkçisi keçmiş bakılı Mizaryanın işlədiyi SSRİ Baş Prokurorluğundan ya məhkəmə hökmünün ləğv olunması və ya yüngülləşdirmə istiqamətində dəyişdirilməsi barədə göstəriş gəlirdi. Özü də arada külli miqdarda puldan söhbət gedirdi. Ümumiyyətlə, mən əminəm ki, Heydər Əliyevi burada "erməni məsələsi"ni həll etmək və Qarabağı ermənilərə vermək üçün Azərbaycan rəhbərliyindən uzaqlaşdırıb Moskvaya aparmışdılar" [8, s.71].

Şuşa şəhərinin inkişafı üçün bir neçə xüsusi qərar qəbul edildi. Apardığımız tədqiqatlardan məlum olur ki, Dağlıq Qarabağda əhalinin təminatı həmişə Azərbaycan SSR üzrə orta göstəricilərdən yüksək olurdu. 1973-cü ildə Xankəndində Azərbaycan Pedaqoji İnstitutunun filialı açıldı. 1979-cu ildə Ağdamdan buraya dəmir yolu çəkildi [12, s.187].

Heydər Əliyev erməni millətçilərinin niyyətini yaxşı dərk edir, sərhəd rayonlarının iqtisadi və sosial-mədəni inkişafına böyük əhəmiyyət verir, qayğı göstərirdi. 1970-ci illərdə mərkəz ermənilərin təhriki ilə Kəlbəcər rayonunun perspektivsizliyi, buradan əhalinin köçürülməsi, torpaqların isə yaylaq kimi respublikalar arasında bölüşdürülməsi haqqında məsələ qaldırdı. Buna qarşı Heydər Əliyev 1977-ci ildən bu rayonun potensial imkanlarını genişləndirmək tədbirləri hazırlanmasına və həyata keçirilməsinə nail oldu. İqtisadiyyat xeyli dirçəldi. Mərkəzin, erməni millətçilərinin mənfur niyyətləri alt-üst edildi [12, s.91].

Heydər Əliyev kimi fitri istedadlı, uzaqgörən, xalqını sonsuz məhəbbətlə sevən, mütəfəkkir bir şəxsiyyətin, praqmatik siyasətçinin Azərbaycana rəhbərlik etməsi respublikanın ictimai-siyasi, iqtisadi və mədəni həyatında sürətli yüksəlişə səbəb oldu. 1970-ci illərdə dövlətimizin milli oyanış siyasəti sayəsində, təhsil, elm, mətbuat, ədəbiyyat və incəsənətin tərəqqisi üçün münasib imkanlar açıldı. Azərbaycanın mənəvi sərvətləri, kadr potensialı daha da artdı və xalqın mədəni irsinin, tarixinin, dilinin öyrənilməsi və təbliği genişləndi. Azərbaycanda baş verən bu proseslər – iqtisadi, siyasi, sosial sahədə baş verən dinamik inkişaf, milli-mənəvi dəyərlərin inkişafı Moskvanın nəzərindən yayınmadı. Mərkəz tarixi təcrübədən istifadə edərək Azərbaycanı qorxu altında saxlamaq üçün "Dağlıq Qarabağ məsələsini" gündəmə gətirdi. 1977-ci il Konstitusiyası hazırlanarkən Dağlıq Qarabağın Ermənistana birləşdirilməsi məqsədilə Moskvaya yüzlərlə ərizələr daxil oldu. Həmin vaxt Azərbaycana rəhbərlik edən Heydər Əliyevin gərgin və səmərəli fəaliyyəti nəticəsində Ermənistanın növbəti ərazi iddialarının qarşısı məharətlə alınmışdı.

XX yüzilliyin 70-ci illərində ermənilərin əsassız ərazi iddiaları məsələləri Heydər Əliyevin nitq və çıxışlarında geniş təhlil edilmişdir. Heydər Əliyev çıxışlarından birində 70-ci illərdəki hadisələri bu cür şərh etmişdir: "Təbiidir ki, Azərbaycan torpaqlarının hamısı Azərbaycana məxsusdur. Hətta indi Ermənistan ərazisində olan torpaqların da böyük bir qismi Azərbaycana məxsusdur. Zəngəzur tamamilə Azərbaycan torpağıdır. Vaxtilə orada yaşayanların əksəriyyəti azərbaycanlılar olublar. Amma, Sovet hakimiyyəti qurulandan sonra, 1920-ci ildə Sovet İttifaqına daxil olan Cümhuriyyətin sərhədləri qurulanda Azərbaycan torpaqlarının bir qismini Ermənistana veriblər. Dağlıq Qarabağda da bir muxtar, yəni özəl vilayət yaradaraq, Mərkəz gələcəkdə Azərbaycanı parçalamaq üçün bu qurumdan istifadə edibdir [7, s.366]. ... Siz bunu bilməlisiniz, tarixçisiniz, gərək biləsiniz, sovet dövründə uzun illər Dağlıq Qarabağı Ermənistana birləşdirmək istədilər. Mən, vaxtilə 14 il Azərbaycana rəhbərlik etmişəm. Bu dövrdə də, ondan əvvəl də dəfələrlə Ermənistan millətçiləri, ekstremistləri Moskva qarşısında təkliflər qaldırıblar, oraya yazılar göndəriblər ki, "Dağlıq Qarabağ Ermənistanındır, orada ermənilər çoxluq təşkil edir, o, Ermənistana bağlı olmalıdır". Biz o vaxt bunların qarşısını almışıq. Şəxsən mən özümə şərəf hesab edirəm ki, Azərbaycana 14 il başçılıq edəndə bu məsələnin

qarşısını bir neçə dəfə almışam. ... [7, s.365]. 1982-ci ilin sonunda məni buradan Moskvaya böyük bir işə apardılar. Mən oraya gedərkən buradakılara bir-iki məsləhət verdim. Dedim, birinci məsələ odur ki, Dağlıq Qarabağ məsələsini həmişə diqqət mərkəzində saxlayın. ...

Ermənilər Dağlıq Qarabağda vəziyyəti həmişə qızışdırırdılar. Ona görə də biz Dağlıq Qarabağın iqtisadiyyatının inkişaf etməsinə üstünlük verirdik. Çünki daim məsələ qalxırdı ki, guya Dağlıq Qarabağı Azərbaycanda sıxışdırırlar və ermənilər Dağlıq Qarabağda inkişaf edə bilmir. Azərbaycanın bütövlüyünü saxlamaq, bütün ərazisini qorumaq üçün biz o vaxtlar, yenə də deyirəm, Dağlıq Qarabağa daha da çox diqqət yetirirdik. Doğrudur, sonra bəzi diletant adamlar məni günahlandırırdılar ki, bunu nə üçün edirdim. Mən bu gün də deyirəm, edirdim. Edirdim ona görə ki, birincisi, Dağlıq Qarabağda azərbaycanlıları da məskunlaşdırmaq lazım idi, ikincisi, Dağlıq Qarabağa, ermənilərə imkan verməyək ki, xırda detalları əldə rəhbər tutaraq bu məsələni qaldırsınlar [7, s.367]. Lakin Ermənistan Elmlər Akademiyasının Prezidenti Ambarsumyan "Heydər Əliyev Dağlıq Qarabağı, Azərbaycanı ardıcıl surətdə ermənilərdən təmizləmişdir" deyə vurğulamışdı. Ona görə də indi ermənilər Dağlıq Qarabağı Ermənistana bağlamaq istəyirlər" [23, s.76].

Fikrimizcə Ümummilli liderimiz Heydər Əliyevin yuxarıdakı dərin məzmunlu nitqi böyük bir elmi tədqiqat işinin məramnaməsidir və tezliklə yəqin ki, öz həllini tapacaqdır.

Çox çətinliklə olsa da Mərkəzdə "Dağlıq Qarabağ məsələsi"ni nizama salan Heydər Əliyev 1979-cu il yanvar ayının 12-də Xankəndinə səfər etdi [6, s.96]. Mən, (Nazim Məmmədov) həmin hadisələrin canlı şahidiyəm. Hətta, çoxları hadisələrdən xəbərsiz olduqlarından Heydər Əliyevin nə üçün Tərtərdə, Ağdamda dayanmayaraq birbaşa Xankəndinə getməsinə narazılıqlarını dilə gətirmişdilər. Onlar nə biləydilər ki, totalitar rejimin hakim olduğu bir şəraitdə, kimsə özbaşına torpaq iddiası irəli sürmüş ola. Əlbəttə, bu məsələdə Mərkəzin də müəyyən maraqları və məqsədləri var idi. Bəli, həmin vaxt Heydər Əliyev birbaşa Xankəndinə getdi və Vilayət Partiya Komitəsində Partiya "fəallarının" fövqəladə iclası keçirildi [12, s.189]. Yəqin ki, mənim yazdıqlarımı oxuyub təsdiq edən canlı şahidlər olacaq. İclasda Heydər Əliyev sakit görünürdü. Lakin daxili narahatçılığı üzündən hiss olunurdu. Mən iclasda olanların hamısını yazmaq fikrində deyiləm. Yalnız onu deyə bilərəm ki, Heydər Əliyev Vilayətin bütün "fəallarını" (Əlbəttə onların hamısı ermənilər idi) ayağa qaldırıb öz sözünü dedi. Onun iclasdakı son sözü bu oldu: "Mən, sizin özünüzü istənilən vaxt sevdiyimiz Ermənistana göndərə bilərəm…. Gözünüzü açıb mənə yaxşı baxın. Mən sizin xudbin niyyətinizi yaxşı dərk edirəm. Nə qədər ki, mən yaşayıram siz bu mənfur məqsədinizə nail ola bilməyəcəksiniz"… Bununla da, Heydər Əliyevin məqsədyönlü siyasi fəaliyyəti nəticəsində 1970-ci illərdə Ermənistanın Azərbaycana qarşı əsassız ərazi iddialarının qarşısı qətiyyətlə alındı [12, s.190].

Sonda Ermənistanın uzun müddət rəhbəri olmuş Dəmirciyanın bir çıxışını yada salmaq istəyirəm. Yerevanın Teatr meydanındakı çıxışında o, demişdir: "Ey mənim sevimli erməni millətim, biz həlli mümkün olmayan bir işdən yapışmışıq. Yaxşı bilin ki, XX əsrdə türklərin yetişdirdiyi iki qüdrətli insan olub: Atatük və Heydər Əliyev. Onlardan ikincisi sağdır. Bütün cəhdlərimizə baxmayaraq, o, çekist məharəti ilə hər tələdən qurtarır. Bilin ki, nə qədər o sağdır, biz nə Qarabağı ala biləcəyik, nə də başqa əraziləri. O, bizdən ağır zərbələr alsa da, Azərbaycan xalqı ən çətin günlərdə yenidən onu Bakıya gətirəcək və bununla da bizim arzularımız puça çıxacaqdır".

Bu düşünülmüş fikrə nə demək olar?! Yalnız bir kəlmə: "Ay məkirli niyyət sahibi olan erməni xalqı, yadda saxla ki, Atatürk və Heydər Əliyevlə yanaşı, türk dünyasının böyük oğlu İlham Əliyev də var!" [15, s.3].

Nəticə. Ümummilli lider Heydər Əliyevin 1993-cü ildə yenidən Azərbaycanda hakimiyyətə gəlməsi ilə ölkəmizdə müstəqil dövlət quruculuğunun təməli qoyuldu və inkişaf etdirildi. Heydər Əliyev dövlətçiliyin qorunub saxlanması və gücləndirilməsi, iqtisadiyyatın sabitləşdirilməsi və bazar iqtisadiyyatına keçilməsinə nail oldu.

Heydər Əliyev nüfuzlu beynəlxalq təşkilatlarda Azərbaycanın haqq səsini bütün dünyaya çatdırdı və bununla da müstəqilliyimiz qorundu, dövlətimiz inkişaf etdi, tanındı və nüfuz sahibi oldu. Onun uzaqgörənliyi nəticəsində xarici siyasətini bərabərlik və qarşılıqlı mənafe prinsipləri əsasında quran Azərbaycan Respublikası dünyada aparıcı bir dövlətə çevrildi. Heydər Əliyevin xarici siyasəti sahəsində ən mühüm uğurlarından biri də ondan ibarət idi ki, o, Azərbaycanı Türk dünyasından təc-

rid olunmuş vəziyyətdən çıxardı. Azərbaycanla birlikdə azadlığa çıxmış Qazaxıstan, Özbəkistan, Qırğızıstan və Türkmənistanla ənənəvi dostluq münasibətlərimizi bərpa etdi.

İlham Əliyevin Azərbaycan Respublikasının Prezidenti seçilməsi ilə dövlətin xarici siyasətində yeni mərhələ başladı. Bu mərhələ özündən əvvəlki dövrün təməlləri üzərində dayanır və onun davamını təşkil edirdi. Heydər Əliyevin siyasi varisi və layiqli davamçısı olan İlham Əliyevin fəaliyyəti Azərbaycanda hüquqi və dövlət quruculuğunun davam etdirilməsi ilə səciyyələnir.

Heydər Əliyevin və onun siyasi xəttini davam etdirən İlham Əliyevin təmin etdiyi siyasi və iqtisadi inkişaf artıq Azərbaycanın torpaqlarını azad etmək yolunda addım atmasına hər cür imkan və şərait yaratdı.

Vətən tarixinə şanlı hərflərlə yazılan və 44 gün davam edən hərbi əməliyyatlar nəticəsində müzəffər Azərbaycan Ordusu 300-dən çox yaşayış məntəqəsini, həmçinin mühüm strateji yüksəklikləri işğaldan azad etdi [16].

Heydər Əliyevin "Xalqımız çoxəsrlik tarixində milli mənliyini, torpağını, vətənini qoruyub saxlamağa qadir olduğunu dəfələrlə sübut edibdir" [18] fikrinə qüvvət olaraq İlham Əliyev bildirmişdir ki, "Azərbaycan xalqının əzmi və iradəsi, iqtisadi gücü, müasir ordu quruculuğu və xalq-iqtidar birliyi ölkəmizin qələbəsini təmin edən mühüm amillər olmuşdur. Ulu əcdadlarımızın zəngin dövlətçilik və hərb tarixindən ilhamlanan Azərbaycan xalqı daha bir şanlı qəhrəmanlıq salnaməsi yazaraq, özünün qalib xalq olduğunu bütün dünyaya sübut etdi və düşmən üzərində tarixi zəfər çaldı [3].

İlham Əliyevin vurğuladığı kimi bu qələbənin təməlini və məğzini 1969-cu ildən Heydər Əliyevlə başlayan milli hərbçilərimizin hazırlanması, milli vətənpərvərlik duyğularının artırılması, iqtisadiyyatımızın inkişaf etdirilməsi, ikinci hakimiyyət dövründə milli ordumuzun yaradılması, ordu quruculuğumuzun təmin edilməsi, inkişafı və bu prosesin varisi olan İlham Əliyevə ötürülməsi 2020-ci ildə qələbəmizi labüdləşdirdi. Heydər Əliyevin türk dünyası ilə qurduğu münasibətlər fonunda Cənubi Qafqazda və bütün dünyada böyük nüfuza malik olan Türkiyənin və bütün türk dünyasının Azərbaycanın haqq işini dəstəkləməsi İkinci Qarabağ müharibəsində qələbəmizin əsaslarından biri hesab olunur.

2020-ci il dekabrın 10-da Bakının Azadlıq meydanında Vətən müharibəsində qələbəyə həsr olunmuş Zəfər paradında Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyub Ərdoğan çıxışında bildirmişdir ki, "Azərbaycanın həm hərbi, həm də diplomatiya sahəsində əldə etdiyi bu uğurda ən böyük paylardan biri şübhəsiz ki, əziz qardaşım cənab Prezident İlham Əliyevə aiddir. Qardaşım İlham Əliyev bununla mərhum Heydər Əliyevin ona vəsiyyət olaraq etdiyi arzusunu da yerinə yetirmişdir. Fürsətdən istifadə edərək güclü Azərbaycanın əsasını qoyan Ümummilli lider Heydər Əliyevi də burada rəhmətlə yad edirəm. Azərbaycan qardaşım İlham Əliyevin qətiyyətli rəhbərliyi ilə, inşallah, dastan yazmaqda davam edəcək. Hörmətli Qardaşım, əziz Azərbaycan xalqı. Türkiyə Azərbaycanın apardığı mübarizəyə ilk günlərdən bütün qurum və təşkilatları ilə dəstək vermiş, bütün imkanları ilə azərbaycanlı qardaşlarının yanında olmuşdur. Türkiyə olaraq Azərbaycan ilə münasibətlərimizdə özümüzə hər zaman böyük lider Heydər Əliyevin "Bir millət, iki dövlət" şüarını rəhbər tutduq. Azərbaycanın torpaqlarını işğaldan azad etməsi heç də mübarizənin başa çatması demək deyildir. Bu günə qədər siyasi və hərbi sahələrdə davam etdirilən mübarizə bundan sonra çox fərqli cəbhələrdə davam edəcəkdir" [10].

ƏDƏBİYYAT

1. Azərbaycan qəz., 25 yanvar 2011.
2. Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin İctimai-Siyasi Sənədlər Arxivi: f.1, s.200, i.74.
3. Azərbaycan Respublikasında Zəfər Gününün təsis edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı. 03 dekabr 2020, 14:01 // https://president.az/.artcles/48455 [14.02.2024].
4. Bakı Post. 1996. № 1-4.
5. Əliyev H.Ə Müstəqilliyimiz əbədidir: çıxışlar, nitqlər, bəyanatlar, müsahibələr, məktublar, məruzələr, müraciətlər, fərmanlar. k.32: yanvar, 2001 – mart, 2001 / H.Əliyev; bur. məsul R.Ə.Mehdiyev. – Bakı: Azərnəşr, 2010. – 512 s.

6. Əliyev H.Ə. Mədəni irsimizin keşiyində. k.1. - Bakı: Nurol, - 2001. - 440 s.
7. Əliyev H.Ə. Müstəqilliyimiz əbədidir: çıxışlar, nitqlər, bəyanatlar, məktublar, müsahibələr. k.4: iyun, 1995 – noyabr, 1995 / bur. məsul R.Mehdiyev. – Bakı: Azərnəşr, 1997. – 528 s.
8. Hidayət. İrəvana 7 məktub. /tərc.ed. S.Məmmədzadə; red. S.Nəzərli; rəssam A.Hüseynov. - Bakı: Əbilov, Zeynalov və oğulları, - 2004. - 84 s.
9. İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Kəlbəcər və Laçın rayonlarında olublar. 16 avqust 2021, 20:30 // https://president.az/az/ articles/ view/52742 [14.02.2024]
10. İlham Əliyev və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Vətən müharibəsində Qələbəyə həsr olunmuş Zəfər paradında iştirak ediblər. 10 dekabr 2020, 13:20 https://president.az/.artcles/48788 [14.02.2024]
11. Qasımov M.C. Azərbaycan Respublikası dünya meridianlarında. - Bakı: Gənclik, - 1992. - 88 s.
12. Məmmədov N.R. Azərbaycan Respublikasının Qarabağ bölgəsi 1970 - 1985-ci illərdə. - Bakı: Avropa, - 2017, - 328 s.
13. Məmmədov N.R. Qarabağ tarixi (1920-1990). - Bakı: Avropa, - 2020, - 984 s.
24. Məmmədov N.R. Ötən əsrin 50-60-cı illərində Ermənistanın Azərbaycana qarşı ərazi iddiaları / "Dirçəliş XXI əsr". - Bakı: - 2007, №116-117.
15. Rəhimzadə A. Bugünümüzün və sabahımızın güclü təməlini yaradan Lider // "Azərbaycan" qəz., 02.05.2021, s.3.
16. Şükürov K.K., Həbibbəyli İ. Zəfər yolu: Qarabağ savaşından Şuşa bəyannaməsinədək. - Bakı: Elm, - 2021, - 904 s.
17. Ulduz jurnalı. Bakı: 1990, №6
18. Ülki İ. Qızıl ulduzdan hilala doğru: Heydər Əliyevin fırtınalı həyatı. - Bakı: Azərbaycan, - 1999. - 75 s.
19. Бобков Ф. КГБ и власть. - М.: Алгоритм, - 2003. - 544 s.
20. ГАППОД, ф.1, опись 80, дело 491, л.15.
21. Гришин В.В. От Хрущева до Горбачева. - М.: Родина, - 2021. - 272 s.
22. Гусейнбейли А. Интервью с генералом разведки. - Баку: - 1997.
23. Зенькович Н.А. Гейдар Алиев. Зигзаги судьбы. - М.: Яуза, - 2007. - 608 s.
24. Караулов А. Вокруг Кремля. М.: Новости, 1990. 480 s.
25. Салех Бей. Армянство. - Баку: Элм, - 1994. - 439, [1] с.
26. Шахназаров Г.Х. С вождями и без них. - М.: Вагриус, - 2001. - 592 с.

НАЗИМ МАМЕДОВ
Старший научный сотрудник отдела «История Карабахской войны и движения Великого Возвращения» Института истории имени А.А.Бакиханова Национальной академии наук Азербайджана, к.и.н., доцент

НЕОБОСНОВАННЫЕ ТЕРРИТОРИАЛЬНЫЕ ПРИТЯЗАНИЯ АРМЕНИИ К НАГОРНО-КАРАБАХСКОМУ РЕГИОНУ АЗЕРБАЙДЖАНА И РЕШИМОСТЬ ГЕЙДАРА АЛИЕВА (60-70-е гг. XX века)

Гейдар Алиев хорошо понимал намерения армянских националистов, придавал большое значение экономическому и социально-культурному развитию Нагорного Карабаха и заботился. В результате умной и дальновидной политики Гейдара Алиева партийные и советские органы, общественные организации организовали свою работу таким образом, что армянские сепаратисты воздерживались от публичных выступлений. Хотя карабахский вопрос вновь поднимался в 60-70-е годы XX века, он был решительно предотвращен Гейдаром Алиевым.

Ключевые слова: Гейдар Алиев, Азербайджан, Нагорный Карабах, сепаратизм, национальная политика, Армения.

NAZIM MAMMADOV
Senior researcher of the "The history of the Karabakh war and the Great Return movement" department of the Institute of History named after A.A. Bakikhanov, Azerbaijan National Academy of Sciences, Ph.D., associate professor

ARMENIA'S UNBASED TERRITORIAL CLAIMS TO AZERBAIJAN'S NAGORNAL KARABAKH REGION AND HAYDER ALIYEV'S DETERMINATION (60-70's of XX century)

Heydar Aliyev well understood the intentions of Armenian nationalists, attached great importance to the economic and socio-cultural development of Nagorno-Karabakh, and cared. As a result of Heydar Aliyev's smart and far-sighted policy, the party and Soviet bodies, public organizations, organized their work in such a way that Armenian separatists refrained from public speeches. Although the Karabakh issue was raised again in the 60s and 70s of the 20th century, it was resolutely prevented by Heydar Aliyev.

Keywords: Heydar Aliyev, Azerbaijan, Upper Karabakh, separatism, national policy, Armenia.

Məqalənin redaksiyaya daxil olduğu tarix: 14 fevral 2024-cü il
Məqalənin çapa qəbul olunma tarixi: 03 may 2024-cü il
Rəyçilər: t.e.d. Şahin Fərzəliyev, t.e.d. İsmayıl Məmmədov.